*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 463-472*

https://doi.org/10.62837/2025.6.463

**SULTANOV ƏLİCAN**
**Şirin İsmayılov adına 3 saylı**
**tam orta məktəb (Siyəzən şəhəri)**
**elicansultanov47@gmail.com**

# HƏQİQİ MƏN MƏFHUMU

## XÜLASƏ

Hər hansı cəmiyyətin olğun və ya natamam səciyyəsi birbaşa onun fədakar ruhlu məmnunluq daşıyıcılarının əks mövqe təmsilçilərinə, yəni sözügedən fədakarlığı mənafeyönlü yeyintiyə məsrəf edənlərinə nisbəti fonunda götürülür.

Biz uşaqlara onların birbaşa istədiklərini yox, onlara lazım olanı verməyi (təbii ki, sevdirməklə) bacarmalıyıq. Çünki istək daha çox qeyri-şüuri reallıq, lazım olan isə, əsasən, təfəkkür hadisəsidir. Başqa sözlə, birincisi qeyri-ictimai, digəri isə ictimai təbiəti ilə diqqət çəkmək əzmindədir. Təbii ki, uşaq lazımlını, əhəmiyyətlini hansısa istədiyi faktdan (önəmli olanı qeyri-önəmlidən) ön plana çıxarmaya bilər. Yaş xüsusiyyətlərinin tələbatı baxımdan bu hal gözləniləndir. Lakin böyüklərin (uşaqların məxsus olduğu hər hansı cəmiyyətin) lazım olanı daha istəkli hala gətirə bilməməsi və ya onu istəməməsi qeyri-normal təsir bağışlayır. Qeyri-yetkin cəmiyyətlərə xas dırnaqarası böyüklər uşaqların nəzərində böyüməkdən ötrü onların qeyri-olğun istəklərinə müsbət reaksiya verməkdə aşırı dərəcədə israrlı olurlar (Məsələn, "Ad günümdə sevdiyim filan hədiyyəni alarsan" arzusuna aidiyyətli əşyanı dərhal almaqla münasibət bildirirlər). Bu yolla uşağın gündəlik həyat planı, təhsili və gələcəyə mövqeyini formalaşdıracaq vacib detallardan – məntiqi və emosional gözləntilərdən özlərini xaric edirlər. Nəticə etibarilə, uşaqlar da onların nəzərində yalnız fiziki müstəvidə nəhəng qalmaq potensialında olan valideynləri kimi elə fiziki mənada (mənəvi-emosional yetkinlikdən uzaq) böyüyür. Heç vaxt aid olduğu cəmiyyəti uşaqlıq yaşından çıxarıb kiminsə qurbanına çevrilməyəcək səviyyəyə çatdıra bilmir.

Əlbəttə ki, uşağa lazım olanı sevdirmək marağı ayrı-ayrı fərdlərin təşəbbüskarlığı qismində faciəvi, vahid orqanizm məzmunlu (təbii ki, bu halda hər bir üzvün təbii xoşbəxtliyi digər üzvlərin məmnunluğuna xidmətdən doğur və bütünləşmiş yaşantıya çevrilir.) yanaşma həddində isə uğurlu nəticənin təmsilçisi ola bilər.

**Açar sözlər:** mənəvi incələmə, mənəvi bühtünlük, emosional əxlaq, bəşəri əhəmiyyət

Məlumdur ki, təhsil istənilən fərd və ya cəmiyyətin formalaşmasını təmin edən ən etibarlı və ən önəmli fundamental gerçəklikdir. Lakin birmənalı olaraq ayrıca bir orqan, struktur, tərkib timsalında deyil, sözügedən hadisənin (fərd və ya onun təqdim etdiyi hər hansı cəmiyyətin) ictimai faydalı (qeyri-subyektiv, qeyri-

mənafeyönlü) həyat tərzinin dəyər etalonu, qədər təmsilçisi kimi. Başqa sözlə, təhsil başlıca özəllik kimi fərd və ya cəmiyyətin azad özünüifadə xarakteristikası olaraq, müstəqil reallıq kimi doğulur, böyüyür və xüsusən, qeyri-subyektiv niyyəti, bəşəri məzmun qədəri ilə dünya çapında mövqe sahibinə çevrilə bilir. Əgər bəhs olunan yanaşım bəşəriyyətin həm makrosubyektlərinin (dövlət, sahibkarlıq faktoru, beynəlxalq təşkilat və s.), həm də mikroüzvlərinin (ayrı-ayrı fərdlərinin) fərqinə vardığı gerçəklikdirsə. Əlbəttə ki, fərd və ya cəmiyyətin (eləcə də bəşəriyyətin) yetkinləşmə - bütünləşmə ehtimalı sözügedən yanaşımın miqyas və həcm olğunluğu ilə düz mütənasibdir. Bəsit nümunə çəksək, hər hansı elmi-texniki nailiyyət və ya kimyəvi reaksiyadan alınan nəticə insanlığın yoxluğuna (misal qismində uranın zənginləşməsi), həmçinin ictimai xarakterli məqamdan qaynaqlanan (məsələn, hər hansı öldürücü virusa qarşı prafilaktik tapıntı qismində) mənəvi məmnunluğa rəvac vermək iqtidarındadır. Neqativ (birinci) nəticənin hücum və ya müdafiə aspektindən danışmaq yersizdir, çünki hər bir halda zərəri görən tərəf, təbii ki, ictimai və ya fərdi hadisə kimi insan və bütövlükdə insanlıqdır. Odur ki bəşəriyyətin milyonda bir faizlik mənafeyönlü yaşayış reallığını yüz faizlik məhvinin (özü də ən yumşaq ehtimal üzrə ən təhlükəli versiyaya aid məhvdən söhbət gedir) nəticə timsalı kimi görmək mümkündür. (4, səh. 444).

Deməli, təhsil həyati deyil, insani (ictimai əhəmiyyətli, mənəvi) bacarıqların beyin redaktəli, yəni səmərəli variantını yaratmaq ehtiyacıdır. Bu yaradıcılıq məqamının reallaşması isə bəşəriyyət və onun istənilən səciyyəli subyektinin özünüifadə olğunluğunun – azad təqdimatının formalaşma dərəcəsindən asılıdır. İstənilən formalaşma prosesinin aidiyyətli mühit, istisna şərt, zaman və digər zəruri resurslarla bağlılığını nəzərə almaqla hər hansı tipik cəmiyyətin həyatını əks etdirən mövsümi şəkillənmənin də məzmun fərqliliyini diqqətdə saxlamalıyıq. Bəşəriyyətin istənilən subyekti (fərdi, ictimai təşkilatı, iqtisadi birliyi, dövləti və s.) ömrünün yaz, yay, payız və qış dövrlərini (başqa sözlə, uşaqlıq, gənclik, ahıllıq və qocalıq çağlarını) həm də düşdüyü adekvat şəraitin təsiri altında ya fiziksəl olaraq yaşamaqla keçirir, ya da bu fəsillərin müsbət aspektlərindən (məs., uşaqlığın saflığından, gəncliyin iradəsindən, ahıllığın təcrübəsindən, qocalığın müdrikliyindən) bəhrələnib özündən sonrakı olğunluğunu şərtləndirən dəyər əmsalını yaradır. (3, səh. 126).

Müasir dünyanın süni intellekt səciyyəli yaşayış ehtiyacı, demək olar ki, öz lüğət fondunda istehlakçı və buna bənzər ifadələrə yer verə bilmir. Çünki bəşəriyyətin müxtəlif ölçü və məzmuna malik subyektləri mövcud sosial təbəqələşməni iki biçimdə (yaxşı və daha yaxşı istehsalçı, əslində isə idarə edən və idarə olunan qismində) təqdim etməkdədir. Bəşəriyyətin ayrı-ayrı məzmun və formaya malik subyektləri arasında siyasi münasibətlər də (məsələn, beynəlxalq qurum, regional təşkilatlar üzrə), əsasən, bu aspektdə təşəkkül tapır. Daha tədrici (uzaqgörən) hesabat təzahürü ilə seçilən mənəvi olğunluq isə sözügedən maddi asılılığa xidməti göstərməkdən başqa çıxış yolu tanımır. Nəticədə, resional və emo-

sional təfəkkür imkanlarımız arasında yaranan tərs mütənasiblik bizə düşdüyümüz quyunun dibini fəth etdiyimiz zirvənin ucqarı kimi təqdim edir. (1, səh. 149).

Bəşəriyyət və onun ayrı-ayrı subyektlərinin ən böyük problemi subyektiv mənafe və marağın aparıcı rolundan imtina edə bilməməsidir. Məsələn, insanın ictimai intellektini səciyyələndirən dövlətçilik hadisəsi emosional yetkinliyə malik olmadığı üçün zaman-zaman öz təyinat seçimində ciddi səhvlərə yol verib (diktəedici seçim tərzi ilə). Elə demokratik qiyafəli sırıntıya köklənməklə aşırı quldar və ya ifrat feodal olan (seçimsizlik içində çeşidli seçim imkanları ilə seçilən) dırnaqarası kapitalizm versiyası da həqiqi kapitalizmin sıfırlanmış variantı qismində məxsus olduğu emosional zəkasızlığın real vəziyyətini özü kimi təqdim etmək məcburiyyətindədir. (3, səh. 145).

Biz təhsili insani bacarıqların (mənəvi xarakterin, emosional düşüncənin) səmərəli versiyasını yaratmaq ehtiyacı qismində dəyərləndirdik. Və sözügedən yaradıcılığın olğunlaşmış özünüifadə səciyyəsi ilə bağlılığından, eləcə də bu əlaqə üzrə bütünləşmə prosesinin mühit, genəl faktor, zaman və digər aidiyyətli detallardan şərtləndiyi də bəllidir. Bu halda azad məfkurə və özünüifadə yetkinliyinin formalaşmasını hallandıran məhz bu qəbil resurslara daxil zaman hadisəsinə istiqamətlənmiş olsaq, onun təqribən bir qərinəlik müstəqillik yaşı olan cəmiyyətimiz üçün təqdim edəcəyi rol, ən yaxşı halda, uşaqlıq dövrünün xüsusiyyətlərini təmsil edə bilər. Çünki zəif inkişaf etmiş və ya inkişaf etməkdə olan cəmiyyətlərin ayrı-ayrı fərdlərinə aid fiziksəl yaş həmin cəmiyyətin bütünlüyünü (emosional təfəkkürünü, yetkinlik yaşını) şərtləndirən ictimai yaşdan ən minimal ölçüdə, bir mərhələ aşağı dövrü səciyyələndirmək gücündədir. Deməli, iki yüzillik əsarətin travmatik gerçəkliyi və uşaqlıq yaşının məsumiyyəti ilə vəhdətdə olan halımız ən azı ahıllıq həddinə malik cəmiyyətlərlə bərabər, özünə xas təbii resurslarını peşəkar istehsalçı qismində dünya çapına çıxaracaq potensial sərgiləməyi bacarmalıdır. Ya da ikitəbəqəli sosiallığı ilə diqqət çəkən qlobal dünyanın robototexniki yaşayış tərzində idarəedici deyil, məhz idarə olunan (formal aspektli, yalnız fiziki sərhəd və mövcudluğa xas mövqe yoxluğu ilə barışmalıdır. (4, səh. 453). Nəticədə, ikinci versiyadan (mövqesiz mövcudluq və ya olumsuzluq faktından) qaçmaq təşəbbüsü istər-istəməz qarşıya çıxan həyati problemləri məxsusi təfəkkür hadisəsi və tətbiqi bacarığa çevirmədən daha süni üsullar, yaşantısız variantlarla sıradan çıxarmaq ehtiyacı yaradır. Çünki uşaqlıq və ahıllıq dövrü arasında yaranan nəinki idraki, bilavasitə ortaya çıxan tam orqanik mənalı (fiziksəl, hissi, təbii və digər çaplı) qədər fərqi istənilən nəticə perspektivinə aşırı təsir marağından əl götürmür. Deməli, həyatının müəyyən dövrü əsarətdə keçmiş istənilən cəmiyyət məhz mumyalanmış beyin daşıyıcısı kimi, azadlığa çıxa bilir və müəyyən yaş dövrünü itirmiş sözügedən durum ən azı onu həmtayları ilə ayaqlaşmaq imkanından məhrum vəziyyətə salır. Üstəlik də əsarət dövrünün yaşatdığı travma nəinki psixi, həm də mənəvi sağlığının itkiləri ilə hələ əsarətdə olduğu dövr üçün yaradıb, dünya çapına çıxarmalı olduğu

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 463-472*

hər hansı reallığı ərsəyə gətirməkdə çətinlik çəkir (O reallıq ki daha müasir yanaşma fonunda arxiv materialına çevrilməklə artıq bir neçə nəsil dəyişikliyinə uğrayıb). Bəli, natamam xarakterin müasir gedişatla ayaqlaşmaq və kölə mövqeyindən sapınmaq zərurətinin özü həm bir üzv, struktur, tərkib, həm də tam mövcudluq həddi üçün qeyri-yetkin münasibət məqamlarından doğan arzuolunmaz (qeyri-sağlıqlı) qərar və nəticələrin meydan sulamasında maraq doğurur. (5, səh. 394).

Söz yenə cəmiyyətin birbaşa, emosional tərəqqisinin, fundomental bütünlüyünün beyin aparatı olan təhsil məsələsinə yönəlmiş olur. Məhz sözügedən hadisə, yəni təhsil bizim (bütövlükdə bəşəriyyət və onun hər hansı məzmun və ölçüyə malik subyektinin) ictimai faydalı yaşantımız qismində müvafiq məişət ehtiyacımıza çevrilməklə insanı insan, cəmiyyəti cəmiyyət, bəşəriyyəti də bəşəriyyət olaraq kainatın vacib orqanı kimi təqdim etmək əzmindədir. Əlbəttə ki, ictimai çəki, qədər məsələsi həm genəl (nəsildən-nəslə ötürülən), həm də sonradan qazanılan (həyati) bacarıqların vəhdəti qismində ən ümdə və müasir dəyər daşıyşıcılığıdır. Bəşəriyyətin istənilən fərd və ya makrosubyektini digər fərd və ya makrogerçəkliklə güvənli ortama, doğmalığa kökləyən ən universal insan hadisəsi anlayışlıq – sağlam yanaşmadır ki, onun da qədərsiz əhəmiyyətindən doğan sərhəd sonsuzluğu bir daha mənəvi özgürlük, ictimai qatqı məsələsini gündəmdə saxlayır. (2, səh. 161).

Məhz sağlıqlı fikir, təfəkkür ortamı yaradan beyin yaxınlığı məqamı hər cür tarixi (məsələn, ərazi birliyi, mədəni bağlılıq aspekti); təbii (məsələn, genəl mənada soy-kök əlaqəli); iqtisadi (çıxarı gəlirə çevirən perspektiv); və ən əsası maddi (fərdi mənafe hikkəsi ilə hazırki dövrümüz üçün daha çox önəm kəsb edən yaxınlıq əzizlik perspektivli göstərici) əsaslı faktorlarla müqayisədə emosional idrakı (yaxud ictimali faydalılıq məramı, mənəvi bütünlüyü) yerində olan fərd və cəmiyyətlər (eləcə də onların vahidliyini əks etdirən bəşəriyyət) üçün müqayisəyə sığmaz dərəcədə dəyərli əhəmiyyət daşıyıcısıdır. Sözügedən detalların (tarixi, iqtisadi, təbii, eləcə də fərdi-mənafe xislətli digər reallıqların) dəyər potensialı maksimum resurs, vasitə səviyyəsində götürülə bilər, təbii ki, ənənəvi yaşayışı məişətinə çökmüş, olğun (emosional) xarakter tipinə malik cəmiyyətlər üçün. Öz emosional yetkinliyini, idraki olğunluğunu yaratmamış cəmiyyətlərdə isə təhsilin istisna struktur, ayrıca orqan çərçivəsinə sığan fəaliyyəti özünü ən aydın və mütərəqqi səviyyəyə çatdırsa belə, məhz birtərəfli (yalnız rasional) səciyyəyə malik olduğundan əlində olan istənilən resursla istənilən nəticəni nümayiş etdirmək gücündə olur, lakin neqativ zərərli xarakterin ən ifrat versiyası fonunda. Bunu (emosional mənəvi yaşayışa xərclənməyən rasional persspektivi) finiş xəttinə doğru düzülmüş atletlərdən ən hazırlıqlısının “İrəli!” komandasına geriyə dönüb qaçmaqla verdiyi reaksiya kimi də qiymətləndirmək olar. Birinciliyə layiq talantı iki və ya üçüncü yerə çəkən bacarıqsızlıqdan belə son dərəcə aşağı əyarlı anlamazlıq nümunəsi olaraq.

Təqdimatca insan mərkəzli, formal kapitalizmə keçidlə müstəmləkə siyasətinin birbaşa yırtıcı rolu həccə gedən yırtıcı obrazla əvəzləndi. Başqa sözlə,

resurs xarakterli rasional zəkanın emosional (mənəvi) düşüncəyə xidmətdən sapınmış forması bəşəriyyətin ayrı-ayrı fərd və makrosubyektlərinin (siyasi güclərin, regional təşkilatların, dövlətlərin və s.) münasibətləri fonunda daha vəhşətli məna çaları yaratdı. Birbaşa (əslində, daha səmimi) və qeyri-daimi müharibələrə xas öldürücü yanaşma, əslində, dolayı (xain, soyuq) və daimi savaşlara mənsub məhz çərlədərək öldürücü reallığa yer vermiş oldu. Nəticə etibarilə, təhsilin məhz emosional zəka təmsilçiliyi, həqiqi mən təqdimatı az qala anbaan, bəşəriyyəti təmsil edən hər hansı fərd və makrosubyektlərin, istisna struktur, sərhəd, çərçivə məqamlarının məxsusi əmlakı olmadığını isbatlamaqdadır. Başqa sözlə, ictimai faydalı perspektivi və ya olğun əqidəsi hesabına bəşəriyyətin istənilən üzvünün məişətini əks etdirməkdə maraq doğuran emosional xarakter anlayışının məhz himayəsi sayəsində təhsil də təhsil kimi bütünləşmiş mənasına oturub hər hansı dövlət, toplum, cəmiyyət və s. daxilində öz tərkibi, hissəvi, struktual əhəmiyyətinə sahib çıxa bilər. Aşağıdakı situasiyalara diqqət yetirsək, emosional zəkamızın qədər imkanlarını daha aydın şəkildə müşahidə etmiş olarıq:

1. Dünya təcrübəsində təhsil istiqaməti üzrə, əsasən, rasional zəkanın zəruri öhdəlik səviyyəsini işıqlandıran müəllimlərin sertifikasiya imtahanının önəm kəsb etməsi və reallaşması faktı var. Bəs sözügedən yanaşma emosional bütünlüyə yiyələnməmiş cəmiyyətlər üçün hansı effektiv nəticə vəd edə bilər?! Əvvəlcə nəzərə aılmalıyıq ki, problemin həllinə nail olan tərəf onun mövcud şəraitə uyğun təməl prinsiplərini daha dəqiq cavablandırmış olur və bir növ özünü inkişafyönlü prosesin yaradıcı hissəsinə çevirir, tətbiqi prosesin peşəkarlıq dərəcəsindən asılı olmayaraq, problemin həllini yaradan deyil, bir növ surət çıxarışı qismində əldə edən tərəfin sərgilədiyi nə varsa, prinsipcə mövcud şəraitin təbii xarakterindən qaynaqlanmadığı üçün keyfiyyət baxımından qeyri-canlı, şəkil effekti verir. Başqa sözlə, sənin zamana, məkana, ölçüyə, rəng duyumuna münasibətin formalaşmayıbsa (təbii ki, hansısa cəmiyyətə xas emosional şüur boşluğundan söhbət gedir), kiminsə ayağında görüb bəyəndiyin ayaqqabını alıb ayağını geyməklə onu nəinki başqalarına, heç özünə belə sevdirə bilməyəcəksən. Nəinki zaman, məkan, rəng çaları, yaş mənsubiyyəti və s. kimi detalların doğal mənada qeyri-adekvat (köçürmə) versiyası, hətta bəsit davranış (yeriş, duruş, oturuş və s.) fərqindən törəyən uyğunsuzluqlarla belə təqlidçi seçimə özü kimi aidiyyatsız rəng çaları qata bilir.

Digər baxımdan illərlə 50 %-lik nəzəri baza ilə auditoriya qarşısına çıxmaqdan narahat olmayıb (məhz fərdi perspektivi daha çoxuna qadir olduğu halda), mənsub olduğu cəmiyyətin insanına, rifahına, mənəvi olğunluğuna yönəlik həqiqi sevginin diktəsi ilə dəyişmək marağına düşməyən birinin hansısa başqa səbəbdən rasional yüksəlişə nail olması (təbii ki, bütünləşmiş əxlaqi-emosional məsələyə laqeyd halda) fərdi və ya ictimai mənada mütərəqqi hadisəyə çevrilə bilərmi?! Məsələn, 45 %-lik (27 ballıq) nəticənin verilən möhlət hüququna rəğmən sonrakı birillik təşəbbüsdən törəyən 80 %-lik ( 48 ballıq) reallıqla əvəzlənməsi yalnız

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 463-472*

sərgi materialı kimi işə yaramır ki?! Çünki bu materialın motivasiya mənbəyi gələcək üçün inkişafyönlü deyil, tənəzzül biçimli perspektiv vəd edir. Madam ki 45%-i 80% edən emosional xislətə, mənəvi bütünlüklüyə yad amillərin idarə aparatına bunlar daxildir: əlavə dərs saatı, 35%-lik məvacib artımı (85% və daha yüksək nəticə fonunda) ən əsası bu kimi maddi məqamların başında duran sevmədiyin həmkarı bir ballıq fərqlə olsa belə, üstələmək faktı. Hələ üstəlik bəhs olunan dırnaqarası nailiyyətin böyüklüyünə ikiqat böyüklük qataraq sevimli qarderobu sıfırdan təzələməklə sözügedən (qıcıq verdiyin) tərəfi istənilən mənada sıfır nöqtəsinə endirmək də var. Özü də bir ballıq fərq sənə bir  çox, məsələn, hansısa sinfə zəngin vaxtından beş dəqiqə gec girib, beş dəqiqə tez çıxmaq kimi imtiyazlar da verir. Özü də acığa (Verir deyəndə, sən özün bu statusu öz imtiyazların sırasına əlavə edirsən ki, aid olduğun çoxluq səni qınamasın. Çünki emosional əqidənin söz yiyəsi olmadığı yerdə həya ən yüngül ifadə, ən ağır söyüş kimi başa düşülür. Qeyd etdiklərim ən primitiv nümunələrdir. Daha nələri qeyd edərdim, söyüş yiyəsi olmağımdan öncə həyamı itirməkdən qorxmasaydım. Axı emosional cəhətdən qeyri-olğun baxış bucağına görə, palçığı atana yox, palçığa batana kirli deyilir (Sözsüz, bu qəbil düşüncə modeli yalnız daxili çözüntüdən məhrum zahiri görüntüyə dayaqlanır). Bəs onda rəmzi olaraq qeyd etdiyimiz bir faizlik qabaqlama məqamı nəticə etibarilə 100 faizlik gerçəkliyi təqdim etsə belə, məramca eqo dolusu subyektivizmdən qidalanmırmı?! Bu səhnə mənəvi bütünlüyün, emosional məsləyin hətta bir faiz həddən belə aşağı olduğunu nümayiş etdirmirmi?! Və bu yarımçıqlığın aidiyyətlı təsir dairəsinə rəğmən sağlıqlı şəxsiyyət tipi, bütünləşmiş insan məfhumu yetişə bilərmi?! (3, səh. 136).

2. Mənə görə həqiqi qürur ətrafının mənafe və məmnunluğunu öz həyat tərzinin təbii tələbatına çevirərək yaşamaqdır (Əgər bu çevrilişə bir lüzum varsa, yeni sözügedən məqam səni qane edəcək səviyyəni fitrətən nümayiş etdirə bilmirsə). Sonsuzluğa köklənmənin yeganə həzz verəcək doyumsuzluğu da məhz bu mənadadır. Lakin gərək ətrafın da bu qədərsiz hissi keyfiyyətə malik olub, onun daimi təmsilçisi qismində həyat sürə. Əks təqdirdə, sənin yeganə seçimin yazıq olmaqla başlayıb, yazıq olmaqla da bitəcək (əgər burada, həqiqətən, hansısa seçimdən və ya doğrudan da, nəyisə başlayıb, nəyisə bitirməkdən söhbət gedirsə). (3, səh. 145).

3. Gətirilən hər hansı situativ misal və ya nümunə təcrübəni ifadə etsə də, təcrübəlini təmsil etmir. Çünki həqiqi təcrübə sahibləri bilir ki, baş vermiş istənilən reallığın təsirləndiyi birbaşa və ya dolayı, təbii və ya manipulyativ, səthi və ya köklü, həmçinin digər individual xarakterə malik göstəricilər var. Və emosional zəka modelinə yiyələnmiş cəmiyyətin hər bir üzvü aidiyyətli olğunluğu, öz ictimai bütünlüyü hesabına qarşılaşdığı hər cür spontan vəziyyətə verməli olduğu reaksiyanın ən əhəmiyyətlisini nümayiş etdirir. Özü də planlı və məqsədli yanaşmadan daha öncə hissi və təbii hazırlığının vəhdəti qismində. Beləcə, məhz həll

variantının ilkin və ya növbəti timsalını yaradır. Başqa sözlə, biz hər bir üzvü də daxil emosional kimliyini yaratmış bir cəmiyyət formalaşdırmalıyıq ki (nə qədər şüur və şüuri yanaşma faktoru var, elə o qədər də kamilliyin özü olan kamilləşmə prosesi öz aktuallığını itirməyəcək), qarşılaşdığımız problemlər köçürmə və təqlidçi münasibətə rəğmən yarımçıq həll sırıntısından sapınıb, məişətimizə çökmüş olumlu reaksiyamız fonunda yaradıcı qədərinə qovuşsun. (4, səh. 298).

4. Əlbəttə ki, insan və ya onun təmsil etdiyi cəmiyyət nə qədər fədakar xislətdədirsə, o qədər xoşbəxtdir və şübhə doğurmur ki, sözü gedən xoşbəxtliyi doya-doya yaşayanlar bu mənada nə qədər dəyər daşıdıqlarının heç cür fərqində olmur. Çünki təbiətdən qaynaqlanan istənilən hadisə (məsələn, elə gedib-gələn nəfəsimiz) sırf var olmağı hesabına var etdiyinə özünü zərrə qədər hiss etdirməz. İstər fərd, istərsə də istənilən məzmunlu cəmiyyət özündə daşıyıb-daşımadığı (özünə və ya ətrafa aid) hər hansı fədakar potensialı subyektiv biçimli istifadəyə yönəltdiyi çəkidə olumsuz yoxsulluq yiyəsinə çevrilir.

Hər hansı cəmiyyətin olğun və ya natamam səciyyəsi birbaşa onun fədakar ruhlu məmnunluq daşıyıcılarının əks mövqe təmsilçilərinə, yəni sözügedən fədakarlığı mənafeyönlü yeyintiyə məsrəf edənlərinə nisbəti fonunda götürülür.

5. Biz uşaqlara onların birbaşa istədiklərini yox, onlara lazım olanı verməyi (təbii ki, sevdirməklə) bacarmalıyıq. Çünki istək daha çox qeyri-şüuri reallıq, lazım olan isə, əsasən, təfəkkür hadisəsidir. Başqa sözlə, birincisi qeyri-ictimai, digəri isə ictimai təbiəti ilə diqqət çəkmək əzmindədir. Təbii ki, uşaq lazımlını, əhəmiyyətlini hansısa istədiyi faktdan ön plana çıxarmaya bilər. Yaş xüsusiyyətlərinin tələbatı baxımdan bu hal gözləniləndir. Lakin böyüklərin (uşaqların məxsus olduğu hər hansı cəmiyyətin) lazım olanı daha istəkli hala gətirə bilməməsi və ya onu istəməməsi qeyri-normal təsir bağışlayır. Qeyri-yetkin cəmiyyətlərə xas dırnaqarası böyüklər uşaqların nəzərində böyüməkdən ötrü onların qeyri-olğun istəklərinə müsbət reaksiya verməkdə aşırı dərəcədə israrlı olurlar (Məsələn, "Ad günümdə sevdiyim filan hədiyyəni alarsan" arzusuna aidiyyətli əşyanı dərhal almaqla münasibət bildirirlər). Bu yolla uşağın gündəlik həyat planı, təhsili və gələcəyə mövqeyini formalaşdıracaq vacib detallardan – məntiqi və emosional gözləntilərdən özlərini xaric edirlər. Nəticə etibarilə, uşaqlar da onların nəzərində yalnız fiziki müstəvidə nəhəng qalmaq potensialında olan valideynləri kimi elə fiziki mənada böyüyür. Heç vaxt aid olduğu cəmiyyəti uşaqlıq yaşından çıxarıb kiminsə qurbanına çevrilməyəcək səviyyəyə çatdıra bilmir.

Əlbəttə ki, uşağa lazım olanı sevdirmək marağı ayrı-ayrı fərdlərin təşəbbüskarlığı qismində faciəvi, vahid orqanizm məzmunlu (təbii ki, bu halda hər bir üzvün təbii xoşbəxtliyi digər üzvlərin məmnunluğuna xidmətdən doğur və bütünləşmiş yaşantıya çevrilir.) yanaşma həddinddə isə uğurlu nəticənin təmsilçisi ola bilər.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 463-472*

6. Hər kəs bu dünyada fədakarlığın təmsilçisi kimi, yaşamağa məhkumdur: istər nadanlığa, istər kamilliyə, istərsə də xasiyyət və ya xasiyyətsizliyə yiyəlik edərək. Bu gedişatı hər kəs öz idrakına və mənəvi imkanlarına görə qiymətləndirib hərəkət edir. Lakin daha əhəmiyyətlisi sözügedən yolçuluğun bizi hansı əxlaq və təfəkkür müstəvisinin təsiri altında önəmsəməsi, bizdən özünə qarşı hansı diqqət və münasibət səviyyəsini gözləməsidir. (4, səh. 500).

7. Ən ali dəyərlərin bizi idarə etməsi bizi vasitə ( hər hansı pozitiv və ya neqativ reallıq üçün önəmli alət) timsalında təqdim edir. Vasitə isə hər cür iyrənc məqsədin həyata keçirilməsində daha vacib rol oynamaq potensialındadır. Həm də əsas rol sahibindən daha təhlükəli perspektivdə. Çünki birbaşa təhlükə subyekti bir üslubun, bir modelin, bir faktorun təmsilçisidir. Vasitə və ya alət məqamı isə n sayda qədər, təzahür və mövcudluğun həlledici tərəfi olmaq əzmindədir. (5, səh. 252).

Bir daha vurğulayaq ki, ən ali dəyərlərin belə bizi idarə etməsi bizi ən yaxşı halda vasitə rolunda təqdim edir. yaxşı olar ki, biz bilavasitə biz tərəfindən mənəvi özəlliklərin vasitəçi roluna önəm verməklə idarə olunaq.

8. Natamam xislətli cəmiyyətdə belə olğun mənəviyyat, əxlaqi kimlik, insani məslək fonunda şərəfli həyata tapınmaq ixtiyarı, həm də düşdüyümüz adekvat şəraitin fürsət verdiyi qədər öz əlimizdə olur. (Əlbəttə ki, onu gerçəkləşdirmək imkanı arzuolunanla müqayisədə yetərincə məhdud halda olsa da).

Şərəfli ölüm isə özü seçici statusundadır. Yəni ən şərəfli əqidə adamının belə şansına düşməyə bilər. Nəticə etibarilə, şərəfli həyatı xoşbəxt mövcudluq, şərəfli ölümü isə xoşbəxt yaşantı kimi dəyərləndirə bilərik. (Birincinin düz yol, ikincinin isə zirvələrdən keçən yolculuğunu nəzərə almaqla). (5, səh. 478).

9. Kişilik dünyaya bir dəfə gəlib,
Bir dəfə getməyin timsalı deyil.
Sən onu hər anın haqqından ötrü
Min kərə doğulub ölmək kimi bil.
O xanım həyası, qız ismətilə
Hamilə qalmaqdır mənəviyyata,
Yalnız insanlıqdan insan doğuran
Məna gətirməkdir bu kainata.

10. Hansı insani keyfiyyət və qədərə sahib çıxsaq belə, insan kimi insan olduğumuza, ümid kimi yanaşmaqda daha nəfis insanlıq məqamı var. Odur ki özümüzü insan olduğumuza inandırıb, insanlıq əyarımızı aşağılayacaq qədər sadəlövh biri olmamalıyıq. (4, səh. 451).

## Ədəbiyyat:

1. Cəlal Bəydili (Məmmədov). “Atalar sözü”. Bakı, “Öndər Nəşriyyat”, 2004
2. Şamil Sadiq. “Ədəbiyyat”. Bakı, “Çaşıoğlu”, 2009

3. Metodika və Pedaqogika. Kurikulum. Bakı, "Təhsil Nəşriyyat - Poliqrafiya", 2024
4. Anar İsayev. "Ümumi tarix". Bakı, "Şərq-Qərb", 2024
5. Anar İsayev. "Azərbaycan tarixi". Bakı, "Şərq-Qərb", 2024

**СУЛТАНОВ АЛИДЖАН**

## ИСТИННАЯ СУЩНОСТЬ ПОНЯТИЯ

### РЕЗЮМЕ

Зрелость или незрелость любого общества напрямую определяется соотношением между его носителями самоотверженного духа удовлетворённости и их противоположностью — теми, кто превращает эту самоотверженность в средство для удовлетворения корыстных интересов.

Мы должны уметь давать детям не то, чего они непосредственно хотят, а то, что им действительно необходимо (разумеется, делая это с любовью и привитием интереса). Поскольку желания чаще являются проявлением неосознанной реальности, тогда как потребности — это, как правило, результат мыслительной деятельности. Иными словами, первое носит необщественный характер, второе же — общественный. Разумеется, ребёнок может не ставить нужное и важное выше желаемого. Это вполне ожидаемо с точки зрения возрастных потребностей. Однако неспособность взрослых (то есть общества, к которому принадлежат дети) сделать необходимое желанным или вовсе отсутствие желания сделать это выглядит аномально. В кавычках «взрослые» в незрелых обществах часто чрезмерно настойчивы в стремлении выглядеть взрослыми в глазах детей, потакая их нецелесообразным желаниям (например, они тут же покупают предмет, связанный с фразой ребёнка: «На день рождения ты мне подаришь вот это»). Таким образом, они исключают себя из важных деталей, формирующих жизненные установки ребёнка, его отношение к образованию и будущему, из логических и эмоциональных ожиданий. В результате дети вырастают лишь в физическом смысле, подобно родителям, которые, с их точки зрения, сильны лишь физически. Они так и не достигают уровня, на котором могут избежать участи стать чьей-то жертвой в обществе, к которому принадлежат с детства. Разумеется, стремление привить ребёнку любовь к необходимому может восприниматься как трагический акт, если остаётся на уровне отдельных личных инициатив.

Однако, когда это становится содержанием единого общественного организма (при котором счастье каждого участника рождается из стремления к удовлетворённости других, превращаясь в общее, цельное проживание), оно способно привести к по-настоящему успешному результату.

**Ключевые слова:** Нравственное исследование, моральная целостность, эмоциональная нравственность, человеческая значимость

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 463-472*

**SULTANOV ALIJAN**

# THE CONCEPT OF THE TRUE SELF

## ABSTRACT

The maturity or deficiency of any society is directly reflected in the proportion between its selfless carriers of fulfillment and the opposing representatives who distort such selflessness into self-serving consumption.

We must be able to give children not what they directly want, but what they need (by making them love it, of course). Because desire is more of an unconscious reality, and what is needed is mainly a phenomenon of thought. In other words, the first is determined to attract attention by its non-social nature, and the second by its social nature. Naturally, a child may not prioritize what is necessary or meaningful. This is expected from the point of view of the requirements of age characteristics. However, the inability of adults (of any society to which children belong) to make the necessary more desirable or not to want it has an abnormal effect. In immature societies, adults are overly insistent on responding positively to children's negative desires in order to grow up (for example, they respond to the wish "If you buy me such a gift for my birthday," by immediately buying the relevant item). In this way, they exclude themselves from the important details that will shape the child's daily life plan, education, and future position - logical and emotional expectations. As a result, children only grow physically, just like their parents—whose perceived greatness is measured merely by physical presence. Such children fail to rise above childhood mentality and remain vulnerable to being victims in society, rather than becoming agents of change. Of course, the desire to make what is necessary lovable can be a tragic struggle when left to isolated individuals.

But when approached as a unified organism (in which every member’s happiness stems from contributing to the well-being of others), it becomes the foundation of meaningful collective existence and can lead to a truly successful outcome.

**Key words:** Spiritual review, moral integrity, emosional morality, human significance

**Rəyçi: prof. Nadir Məmmədli**